# Aqrar sektorun inkişafına dövlət qayğısı ilbəil artır



***Ümummilli lider Heydər Əliyevin uzaqgörənliyi, bilavasitə şəxsi təşəbbüsü ilə ötən əsrin 90-cı illərində ölkə iqtisadiyyatının bütün sahələri ilə yanaşı, kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində də mühüm və təxirəsalınmaz proqram və layihələr işlənib həyata keçirilməyə başladı. "Aqrar islahatı haqqında","Torpaq islahatı haqqında" qanunlar qəbul edildi. Bundan sonra Azərbaycan kəndlisi öz pay torpağının tam hüquqlu sahibi oldu. Ulu öndərin sərəncamı ilə "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı"nın təsdiq edilməsi göstərilən sahə üzrə yeni nailiyyətlərin əldə olunmasına mühüm töhfələr verdi. Bu proqram çərçivəsində görülmüş işlər nəticəsində kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı əhəmiyyətli dərəcədə artmağa başladı. Ümummilli lider tərəfindən başlanan aqrar islahatları möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir.***

Azərbaycanın davamlı və intensiv inkişafı göstəricisinin əsas amillərindən biri olan ölkə əhalisinin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi istiqamətində Prezident İlham Əliyevin rəhbərliyi ilə son dərəcə mühüm işlər görülmüşdür. Ərzaq təhlükəsizliyinin təmin edilməsi qlobal xarakter daşıyır. Ərzaq təhlükəsizliyi ölkənin iqtisadi təhlükəsizliyinin tərkib hissəsi olub, dövlətin strateji maraqlarının qorunmasında mühüm əhəmiyyət kəsb edir. Prezidentin 2008-ci il mayın 1-də imzaladığı "Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramının hazırlanması haqqında" sərəncamı ərzaq təhlükəsizliyinin təminatı məsələsində yeni bir mərhələnin başlanmasına start verdi. Eyni zamanda, dövlət başçısının 2008-ci ilin avqust sərəncamı ilə təsdiqlənmiş "2008–2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" isə ərzaq təhlükəsizliyi sahəsində ən əsas və aparıcı addımlardan biri oldu.

Məlum olduğu kimi, kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi hazırlanmışdır. Strateji Yol Xəritəsində ölkənin kənd təsərrüfatı sahəsinin inkişafı ilə bağlı 2020-ci ilədək strateji baxış, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış əks olunub. Bu da kənd təsərrüfatı sahəsində həm orta, həm də uzunmüddətli dövr üzrə strateji inkişaf hədəflərinə çatmaq üçün dövlətin ardıcıl mərhələlərlə icra ediləcək aydın yol xəritəsinə malik olmasını ifadə edir.

Prezident İlham Əliyev kənd təsərrüfatının inkişafına hərtərəfli dövlət dəstəyinin təmin ediləcəyini bildirmişdir: "Son illər ərzində biz kənd təsərrüfatının inkişafı, xüsusilə, ərzaq təhlükəsizliyi məsələləri ilə bağlı çox böyük nailiyyətlərə imza atmışıq. Bizim son illər ərzində əsas vəzifəmiz ərzaq təhlükəsizliyi məsələləri idi. Çünki sovet vaxtında Azərbaycanda pambıq, üzüm, meyvə-tərəvəz istehsal olunurdu, ancaq əsas ərzaq məhsulları başqa respublikalardan gəlirdi. Ona görə biz, ilk növbədə, daxili tələbatı yerli məhsullarla təmin etmək üçün işləyirdik, çalışırdıq, investisiyalar qoyulurdu. Hesab edirəm ki, ərzaq təhlükəsizliyi məsələlərinin həllində çox ciddi



uğurlara nail olmuşuq. Bu gün biz ərzaq təhlükəsizliyini şərtləndirən əsas sahələr üzrə ya özümüzü tam təmin edirik, ya da bu hədəfə çox yaxınıq. Ət istehsalı, təxminən, 100 faizə yaxındır, Azərbaycan özünü təmin edir. Süd istehsalı təqribən 80-85 faizdir. Toyuq əti istehsalı yaxın bir-iki ilə 100 faizə çatacaq və böyük ixrac potensialı yaradılacaq. Yumurta istehsalı – biz indi nəinki özümüzü təmin edirik, həm də ixrac edirik. Yəni, bu sahələr prioritet idi".

Bu gün Azərbaycanda iqtisadiyyatın qeyri-neft sektorunda böyük çəkiyə malik olan kənd təsərrüfatı sürətlə inkişaf edir. Ölkənin artan inkişaf göstəriciləri arasında kənd təsərrüfatının önə çıxması isə təsadüfi deyil. Son illər ərzində dövlət əhalinin ərzağa olan daxili tələbatını əsasən öz potensialı və imkanları hesabına ödəyə bilməsi üçün regionlarda infrastruktur sahələrinin yaradılması və kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində mühüm islahatlar aparır. Kənd təsərrüfatı sahəsində ərzaq təhlükəsizliyinin təmin olunması üçün bitkiçilik və heyvandarlıq sahələri inkişaf etdirilib, ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsi daha da yaxşılaşdırılıb.

Möhkəm təməl üzərində qurulmuş respublikamızın kənd təsərrüfatı ölkə Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunaraq əhalinin ərzaq təhlükəsizliyinin daxili istehsal hesabına ödənilməsi istiqamətində inkişaf edir. Hazırda dövlətimizin diqqət mərkəzində saxladığı ən mühüm problemlərdən biri milli ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlığının başlıca şərtidir.

Dünyada əhali sayının sürətlə artdığı, təbii ehtiyatların tükəndiyi bir şəraitdə ərzaq təhlükəsizliyi məsələsi daha kəskin şəkildə özünü büruzə verməkdədir. Ərzaq təhlükəsizliyi probleminin kəskin xarakter almasından sonra bu məsələ istənilən dövlət, o cümlədən Azərbaycan üçün milli təhlükəsizliyin ən mühüm tərkib hissələrindən birinə çevrilib. Bu problemin həlli, ilk növbədə, yoxsulluğun azaldılması, ərzaq təminatının və ərzaq məhsullarından istifadənin səmərəsinin artırılması ilə bağlıdır. Hazırda ölkəmizdə makroiqtisadi sabitliyin qorunub saxlanması, enerji və ekoloji təhlükəsizliyin təmin olunması, iqtisadiyyatın diversifikasiyası, kənd təsərrüfatının inkişafı strategiyası uğurla həyata keçirilməkdədir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il 9 oktyabr tarixli fərmanı ilə hər il noyabrın 1-i ölkəmizdə Kənd Təsərrüfatı İşçiləri Günü kimi qeyd olunur. Kənd təsərrüfatı işçilərinin peşə bayramının təsis edilməsi və 2015-ci ilin ölkədə "Kənd təsərrüfatı ili" elan olunması barədə imzaladığı sərəncamlar Prezident İlham Əliyevin aqrar sahədə çalışanlara diqqət və qayğısının bariz nümunəsidir. Son illərdə kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bu sahənin keyfiyyətcə yeni mərhələyə keçilməsinin təməli qoyulub. Əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi, aqrar sahədə ixrac potensialının artırılması məqsədilə müasir aqroparklar və iri fermer təsərrüfatları təşkil edilib. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində bölgələrdə müasir infrastruktur qurulub, kəndlərarası avtomobil yollarının şəbəkəsi genişləndirilib.

Əhalinin kənd təsərrüfatı məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsinin stimullaşdırılması, ixrac potensialının artırılması məqsədilə müasir aqroparkların və iri fermer təsərrüfatlarının, xüsusilə, kooperativlərin yaradılması mühüm önəm daşıyır. Azərbaycan Prezidenti cənab İlham Əliyev "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017–2022-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncam imzalaması da bunun bariz ifadəsidir.

Azərbaycanda kənd təsərrüfatının inkişaf etdirilməsinə dövlət tərəfindən göstərilən diqqət və qayğı ildən-ilə artır. Şübhəsiz ki, əldə olunan uğurların əsasında ardıcıl və düşünülmüş siyasət, cəsarətli və fədakar fəaliyyət dayanır. Uğurlu sosial-iqtisadi siyasətin nəticəsi olaraq son illərdə ölkəmizdə kənd təsərrüfatının inkişafının sürətləndirilməsi istiqamətində də genişmiqyaslı işlər həyata keçirilir və reallaşmaqda olan layihələr onu deməyə əsas verir ki, yaxın gələcəkdə ölkəmiz həm də bu sahədə regionun əsas ixracatçı ölkəsinə çevriləcək.

Ermənistan silahlı qüvvələri üzərində böyük zəfərlə bitən 44 günlük Vətən müharibəsi nəticəsində işğaldan azad edilən torpaqlarımızda hazırda kənd təsərrüfatının təşkilinin və inkişafının planlaşdırılmasına başlanılıb. Sözsüz ki, torpaqlarımızın azad edilməsi kənd təsərrüfatının inkişafına da müsbət təsir göstərəcək. Ölkənin əkin dövriyyəsi artacaq, strateji əhəmiyyətli su anbarlarının yerləşdiyi ərazilərin işğaldan azad edilməsi nəticəsində yüz minlərlə hektar sahənin suvarılması təmin ediləcək. Azad edilmiş torpaqlarda üzümçülük, taxılçılıq, pambıqçılıq və heyvandarlığın inkişafı üçün çox böyük potensial vardır. Bu potensialdan düzgün istifadə etmək, eyni zamanda, aqrar emal sənayesini genişləndirməklə kənd təsərrüfatının davamlı inkişafı təmin olunacaq.

Dövlət başçısı cənab İlham Əliyev çıxışlarında bildirmişdir ki, işğaldan azad edilən ərazilərdə bərpa planları kifayət qədər genişdir. Bu ərazilərin potensialı çox yüksəkdir. Baxmayaraq ki, işğalçılar 30 il ərzində bu ərazilərdə hər şeyi məhv ediblər, amma bu torpaqların hər qarışı bizim sərvətimizdir. Gözəl təbiəti, yeraltı və yerüstü resursları olan Qarabağ torpaqlarının iqtisadiyyatımıza böyük dividendlər gətirəcəyi şübhəsizdir. Təbii ki, quruculuq işləri həyata keçiriləndən, insanlar o torpaqlara qayıtdıqdan, torpaqların əkilib-becərilməsindən, sosial-iqtisadi infrastrukturun yaradılmasından sonra biz həmin bölgələrin inkişafımıza nə qədər böyük təkan verəcəyinin, müsbət təsir göstərəcəyinin şahidi olacağıq.

Dövlət başçısı onu da qeyd etdi ki, "kənd təsərrüfatı sahəsində ciddi islahatlar aparılır, şəffaflıqla, subsidiyalarla bağlı yeni mexanizmlər tətbiq edilir. Hər yerdə şəffaflıq, dövlətə və xalqa, vətəndaşlara xidmət etmək əsas prinsip olmalıdır. Heç bir ölkədə dövlət özəl sahibkara hansısa bədbəxt hadisəyə görə təzminat ödəmir. Sahibkarların sosial məsuliyyəti olmalıdır. Sağlam iqtisadi, investisiya mühiti, dövlət dəstəyi, şirkətlərin dövlət qurumları ilə sıx təmasda olması, yerli və mərkəzi icra orqanlarının vahid yanaşması əldə olunan uğurları şərtləndirən amillərdir".

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində kənd təsərrüfatının bərpası və inkişafı istiqamətlərinin müəyyən olunması məsələləri, mövcud dünya təcrübəsi ilə yanaşı, bir sıra spesifik məqamların da nəzərə alınmasını tələb edir.

Digər tərəfdən isə 1996-cı ildə qəbul edilmiş qərarla Azərbaycanda əkin təyinatlı kənd təsərrüfatı torpaqlarının əvəzsiz olaraq kənd yerlərində yaşayan əhalinin şəxsi mülkiyyətinə verilməsi ilə nəticələnən və uğurla həyata keçirilən torpaq islahatları məlum səbəbdən işğal olunmuş əraziləri əhatə etməmişdir. Yəni, azad olunmuş ərazilərdə torpaq islahatının aparılması və aqrar sahədə tam olaraq özəl sektorun fəaliyyətinə əsaslanan təsərrüfatçılıq fəaliyyətinin qurulması vəzifəsi də qarşıda durur.

Azad olunmuş ərazilərdə kənd təsərrüfatı sahəsinin bərpasının 7 istiqaməti müəyyənləşdirilmişdir. Qeyd edilən istiqamətlərin hər biri işğaldan azad olunan ərazilərin tədricən bərpası və inkişafı ilə bağlı kifayət qədər geniş əhatəli məsələlərlə xarakterizə olunur.

İşğaldan azad edilmiş ərazilərdə arıçılığın inkişafı diqqət mərkəzindədir. Artıq Kəlbəcərdə bu sahədə uğurlar var və onun gələcəkdə inkişaf etdirilməsi nəzərdə tutulur. Arıçılıq sahəsində ixtisaslı kadrların hazırlanması da planlaşdırılır. Bizim akademiyanın zoomühəndislik fakültəsində belə bir ixtisasın yaradılması da gözlənilir.

Aqrar sahədə aparılan islahatların uğurla reallaşdırılmasında Kənd Təsərrüfatı Nazirliyinin rolunu xüsusi qeyd etmək lazımdır. Nazirlik cənab Prezidentin qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsində qüvvələri səfərbər edir, onların icrasını sürətlə həyata keçirir.

Mütəxəssislər hesab edirlər ki, möhtərəm Prezidentimizin 2 fevral 2021-ci il tarixdə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında imzaladığı sərəncam ölkəmizin qarşıdakı 10 il ərzində keyfiyyət etibarilə daha yüksək səviyyəyə çıxması üçün geniş imkan açmışdır. Onların fikrincə, milli prioritetlər dövlətin idarə olunmasında strateji planlaşmanın təcəssümüdür. Bu, ölkəmizin sosial-iqtisadi inkişafının bütün istiqamətləri üzrə risklərin azalmasına, sahələrin sürətli inkişafına töhfə verəcək.

***Qənbər ABDULLAYEV,***
***Azərbaycan Dövlət Aqrar Universitetinin zoomühəndislik fakültəsinin dekanı, aqrar elmləri doktoru, professor***